## Ödəniş köşkləri-paypointlər

Məlumdur ki, bu gün ölkədə kommunal xərclərin böyük hissəsi ticarət, biznes mərkəzlərində, metro stansiyalarında, supermarketlərdə, hava limanında, vağzallarda quraşdırılan ödəniş köşkləri vasitəsilə həyata keçirilir. Bu yazımızın əsas məqsədi paypoint sistemi ilə fəaliyyət göstərən ödəniş terminalları və son zamanlar bu sistemə tətbiq edilən yeniliklər haqqında oxuculara məlumat verməkdir.

Ödəniş terminalları ideyası istifadəçilərin rahatlığı üçün düşünülmüş və elmi-texniki inkişafın amillərindən biri kimi çıxış edir. «Komtec» şirkətinin servis brendi olan paypointlər ölkəmizdə ilk dəfə 2009-cu ildən fəaliyyətə başlamışdır. Paypoint şəbəkəsinin əsas məqsədi əhaliyə ani, rahat və keyfiyyətli ödəniş xidmətləri üçün platformanı təmin etməkdir. «Komtec» şirkətinin strateji inkişaf üzrə direktoru Fərid İsmayılzadənin qəzetimizə verdiyi məlumata görə, hazırda ölkə ərazisində 500-ə qədər ödəniş köşkü fəaliyyət göstərir, ilin sonuna kimi onların sayının 1000-ə çatdırılması nəzərdə tutulur.

Bu gün paypoint brendi altında fəaliyyət göstərən ödəniş köşkləri vasitəsi ilə istehlakçılar bütün kommunal xidmətləri (qaz, işıq, su), mobil telefon xidmətlərini, şəhər telefonu, internet və kabel televiziyası haqlarını ödəyə, təyyarə bileti sifariş edə və onlayn oyunlarında balanslarını artıra bilərlər.

Ödəniş köşklərinin üstün cəhətlərindən biri odur ki, ödəniş etmək üçün poçta və ya provayderin ofisinə getmək, vaxt itirmək, maşını saxlamağa yer axtarmaq lazım deyil. Sadəcə, ödəniş terminalına yaxınlaşaraq «bir pəncərə» prinsipi ilə 2-3 dəqiqə vaxt sərf etməklə bütün ödənişləri həyata keçirmək mümkündür. Terminallarda bütün ödənişlər onlayn qaydada həyata keçirilir və ödənilən pul vəsaiti dərhal istifadəçinin balansına və ya şəxsi hesabına köçürülür.

Artıq ödəniş köşkləri vasitəsilə vətəndaşlar nəinki kommunal, hətta kredit ödənişlərini həyata keçirə bilirlər. Hal-hazırda paypoint terminalları vasitəsi ilə «Dəmirbank» və «Turanbank»ın kreditlərinin ödənilməsi mümkündür. Növbəti mərhələdə «AGbank», «Bank of Baku», «Bank Respublika», «ASB Bank», «SilkWay bank» və «Unibank»ın sistemə qoşulması gözlənilir. Həmçinin,  ölkənin iki böyük qeyri-bank kredit müəssisəsi - «AzərKredit» və «Finka» ilə sistemə qoşulmaq haqqında müqavilə imzalanmışdır.

F.İsmayılzadə əhaliyə kütləvi xidmətlər göstərilməsi sahəsində ixtisaslaşan təxminən 40 şirkətin paypoint sisteminə qoşulduğunu bildirir: «Biz bütün internet provayderləri, mobil rabitə və kabel TV, şəhər telefon və kommunal xidmət operatorları adından ödənişləri qəbul edirik və göstərdiyimiz xidmətlərin siyahısı daim artır. Məsələn, yaxın vaxtlarda bizim köşklər vasitəsi ilə «Azərloto» lotereyası alaraq bəxtinizi sınamaq mümkün olacaq. Onlayn oyun həvəskarlarını da sürpriz gözləyir: bu bölməyə populyar oyunlar əlavə ediləcəkdir. Hələlik terminal yalnız nağd ödənişləri qəbul edir. Hazırda mütəxəssislərimiz nağdsız ödənişlərin, yəni bank kartları vasitəsi ilə ödənişlərin qəbul edilməsinin tətbiqi üzərində çalışırlar. Bundan əlavə, yaxın vaxtlarda sistemdə «elektron pulqabı» adlandırılan xidmət növü istifadəyə veriləcəkdir ki, abunəçilər onun sayəsində öz xərclərini evdən və ya ofisdən planlaşdıra bilərlər.

Vətəndaşlar ödənişləri PC-kassirlər işləyən yerlərdə və ölkənin 30 bankında həyata keçirə bilərlər. Biz AgentPay adlandırılan xüsusi proqram təminatı hazırlamışıq. Onun sayəsində 30-dan artıq bankın bütün filiallarında bizim sistemdə təmsil olunan operatorların adından ödənişlər qəbul olunur. Bunun üçün sadəcə PC-kassirə və ya bankın əməliyyatçısına ödənilən xidməti və həmin xidmətdə öz kodunuzu (istifadəçi adı, müqavilənin nömrəsi və ya abunəçi kodu) bildirməyiniz kifayətdir».

Arzu İBRAHİMOVA